# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli 19 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında sığorta ödənişinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığorta ödənişinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 aprel tarixli 158 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli 19 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında sığorta ödənişinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.2-ci bənddə "qanunvericiliklə müəyyən olunmuş qaydada işsiz kimi qeydiyyata alınmasından" sözləri "sığorta hadisəsinin baş verdiyi tarixdən" sözləri ilə əvəz edilsin;

1.2. 4.3-cü bənddə "işsiz kimi qeydiyyata alınmasından" sözləri "sığorta hadisəsinin baş verdiyi tarixdən" sözləri ilə əvəz edilsin;

1.3. 4.10-cu bəndin birinci cümləsində "işsizliyin başlanmasından" sözləri "sığorta hadisəsinin baş verdiyi tarixdən" sözləri ilə, "35" rəqəmləri "30" rəqəmləri ilə əvəz edilsin və "işsiz kimi qeydiyyata alındığı tarixdən 3 ay sonra" sözləri çıxarılsın.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "28" aprel 2022-ci il

№ 110